*MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ – ƏDƏBİ ƏLAQƏLƏR*

# Məhəmməd Salihin "Şeybaninamə"əsəri Azərbaycan dilində

**Əbülfəz Quliyev**
AMEA-nın müxbir üzvü. Azərbaycan.
E-mail: ebulfez1950@mail.ru
https://orcid.org/0000-0002-4105-1002

**Annotasiya**. XV-XVI əsrlər Orta Asiya türk xalqlarının ədəbiyyatı tarixində mühüm yer tutur. Bu dövrdə cağatay ədəbiyyatında Əlişir Nəvai, Hüseyn Bayqara, Zahirəddin Babur, Məhəmməd Şeybani, Məhəmməd Salih kimi ədəbi şəxsiyyətlər yetişmişdir. XV əsrin sonlarında Orta Asiyada Teymurilər çox zəifləmişdi, ona görə taxt uğrunda mübarizə kəskin şəkildə qızışmışdı. Özbək əsilli Şeybani xan bu işdə xüsusilə seçilirdi. O, Şeybanilər dövlətini qurmuşdu və var gücü ilə bu dövlətin sərhədlərini genişləndirməyə cəhd göstərirdi. Şeybani xan cəsur sərkərdə olmaqla yanaşı, həm də gözəl təbi olan şair idi, divanı qalmışdır. Şeybani xan söz ustalarını, şairləri ətrafına toplamışdı. Onun sarayında olan şairlərdən biri də Məhəmməd Salih idi. Məhəmməd Salih hökmdarın bütün hərbi yürüşlərində iştirak edir,onun igidliklərini yazıya alırdı. Şairin qələmə aldığı "Şeybaninamə" məsnəvisi də bu hökmdara və onun döyüş meydanında əldə etdiyi zəfərlərin tərənnümünə həsr edilmişdir. Əruzun rəməl bəhrində yazılmış 4447 beytdən ibarət olan "Şeybaninamə" poemasının ancaq bir nüsxəsi zəmanəmizə qədər gəlib çıxmışdır. 1510-cu ildə üzü köçürülmüş "Şeybaninamə" məsnəvisinin yeganə əlyazma nüsxəsi Vyanadakı Avstriya Milli Kitabxanasında saxlanmaqdadır. Divan ədəbiyyatı nümunəsi olmasına baxmayaraq, bu əsərin dili sadə və oxunaqlıdır. Məqalədə Məhəmməd Salihin "Şeybaninamə" poemasını müxtəlif mənbələrdən Azərbaycan dilinə tərcüməsi əsasında tədqiqata cəlb edilmişdir.
**Açar sözlər:** "Şeybaninamə", cağatay dili, ədəbiyyat, şeir, Məhəmməd Salih

http://dx.doi.org/10.29228/edu.148
**Məqaləyə istinad:** Quliyev Ə. (2020) *Məhəmməd Salihin "Şeybaninamə" əsəri Azərbaycan dilində.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 142-148
**Məqalə tarixçəsi:** göndərilib – 04.05.2020; qəbul edilib – 18.05.2020

# Muhammad Salih's work "Sheybaniname" in the Azerbaijani language

**Abulfaz Guliyev**
Corresponding member of ANAS. Azerbaijan.
E-mail: ebulfez1950@mail.ru
https://orcid.org/0000-0002-4105-1002

**Abstract.** The 15$^{th}$ and 16$^{th}$ centuries have an important place in the history of the literature of the Turkic peoples of Central Asia. During this period, such literary figures as Alisher Navai, Huseyn Baygara, Zahiraddin Babur, Mohammad Sheybani,

Mohammad Salih grew up in Chagatai literature. At the end of the 15th century, the Timurids in Central Asia were very weak, so the struggle for the throne intensified. Sheybani khan of Uzbek origin was especially distinguished in this case. He established the Sheybani state and tried his best to expand the borders of this state. Sheybani khan was not only a brave commander, but also a poet of beautiful inspiration. His collection of poems has survived to this day.Sheybani khan gathered masters of words and poets around him. One of the poets in his palace was Muhammad Salih. Muhammad Salih took part in all the military campaigns of the ruler and recorded his bravery. The poet's poem "Sheybaniname" is dedicated to this ruler and his victories on the battlefield. Only one copy of the poem "Sheybaniname" consisting of 4447 verses written in aruz has survived. The only manuscript of the Sheybaniname, copied in 1510, is kept in the Austrian National Library in Vienna. Despite the fact that it is an example of classic literature, the language of this work is simple and readable. Taking into account its literary significance, we have translated this valuable example of the classical Chagatai literary language from the original into our language and prepared it for publication.
**Keywords:** "Sheybaniname", Chagatai language, literature, poetry, Mohammad Salih.

http://dx.doi.org/10.29228/edu.148
**To cite this article:** Guliyev A. (2020) *Muhammad Salih's work "Sheybaniname" in the Azerbaijani language.* «Comparative Literature Studies», Issue I, pp. 142-148
**Article history:** received – 04.05.2020; accepted – 18.05.2020

## Giriş / *Introduction*

Ədəbi əhəmiyyətini nəzərə alaraq klassik cağatay ədəbiyyatının dəyərli nümunəsi olan “Şeybaninamə” poemasını P.M.Melioranski, E.Şadiyev və Y.Kocasavaş nəşrləri əsasında əsəri dilimizə tərcümə edilərək tərəfimizdən çapa hazırlanmışdır. Əsər bir çox məziyyətləri baxımından əhəmiyyətli tarixi mənbədir.

Çingiz xan ölərkən (1259) öz mal-mülkünü övladları arasında böldü. Onun böyük oğlu Cağatay xanın payına düşən ərazi uyğurların yaşadığı yerlərdən Buxara və Səmərqəndə qədər olan əraziləri əhatə edirdi. Bu ərazi Cağatay ulusu adlanırdı. Bu ulus etnik və dini cəhətdən qarışıq idi. Bu əraziyə Mavərənnəhr də deyilrdi. Cağatay türkcəsi XIV əsrdən Orta Asiya türklərinin ümumi ədəbi dili mənasını ifadə etməyə başlamışdır. Cağatay türkcəsinin ən görkəmli nümayəndəsi Əlişir Nəvaidir. O, cağatay ədəbiyyatının klassik dövrünü təmsil edir [1, s.272]. J.Ekmann cağatay dili və ədəbiyyatının inkişafı tarixini aşağıdakı dövrlərə ayırır: 1. İlk cağatay dövrü (XIV-XV əsrlər). Nəvaiyə qədərki bu dövrün Səkkaki, Lütfi, Gədai, Yakini, Atai, Yusuf Amiri, Heydər Xarəzmi, Əhmədi kimi görkəmli ədəbi şəxsiyyətləri olmuşdur. 2. Klassik cağatay dövrü (XV-XVI əsrlər). Əlişir Nəvai, Hüseyn Baykara, Hamidi, Məhəmməd Salih, Məhəmməd Şeybani, Ubeydi, Babur kimi sənətkarlar bu dövrün nümayəndələridir. 3. Klassik dövrdən sonrakı dövr (XVII əsr). Bu dövrün əsas nümayəndəsi Əbülqazi Bahadırxandır. 4. Son cağatay dövrü XVIII-XIX əsrləri əhatə edir [2, s.139].

## Əsas hissə / *Main part*

Klassik cağatay ədəbiyyatı XVI əsrdən etibarən Şeybanilərlə Orta Asiyada və Z.Babur ilə də Hindistanda iki istiqamətdə davam və inkişaf etmişdir.

Hindistanda Baburla davam etdirilən Çağatay ədəbi dili və ədəbiyyatı, qeyd edildiyi kimi, Orta

Asiya bölgəsində Şeybani xan, Bennai, Kamran Mirzə, Məhəmməd Salih, Bayram xan kimi önəmli şairlərlə XVIII əsrə qədər davam etdirildi.

Şeybani xana mənsub şahzadələrin idarəsindəki köçəri özbəklər XVI əsrin əvvəllərində Xarəzm və Mavərənnəhri, Hüseyn Bayqaranın ölümündən (m. 1438-1506) sonra da Xorasanı ələ keçirərək Teymurilər hakimiyyətinə son verdilər. 1510-cu ildə Səfəvi hökmdarının Şeybani xanı məğlub edib öldürməsindən istifadə etmək istəyən Babur, Mavərənnəhr və Xarəzmi özbəklərdən geri almağa çalışdısa da, müvvəffəq ola bilmədi. Baburun Hindistana köçüb burada Türk-Hind İmperatorluğunu qurması ilə Teymurilər sülaləsi varlığını qoruya bildi. Heratın önəmini yavaş-yavaş itirməsi ilə Şeybanilər idarəsində Səmərqənd, Buxara kimi şəhərlər yenidən önəm qazandı. Dövrün elm adamları və şairləri bu mərkəzlərdə toplanmaqla, buralar elm və mədəniyyət mərkəzləri halına gəldi. Şeybanilər dövründə cağatay yazı dili və ədəbiyyatı davam etdirildi.

Məhəmməd Şeybani xanın adı orta əsr qaynaqlarında çox zaman Şeybak, Şaybak şəklində, onun öz şeirlərində isə Şıban, Şibani şəklində işlənmişdir. Şeybani sözü ehtimal ki, Şahi-baxt adının təhrif olunmuş formasıdır . Onu da qeyd edək ki, son araşdırmalarda Şeybani sözünün ilkin variantının qədim türk sözü olan “çoban”dan gəldiyi haqqında fikirlər səslənməkdədir (Əkbər Nəcəf). Şaybak və ya Şeybani xan (1451-1510) Əbülxayır xanın (1428-1468) nəvəsi olub, şəcərəsi belədir: Şeybani ibn Budaq Sultan ibn Əbülxayır.

Bu savaş adamı maarif və mədəniyyət haqqında öz dövrünün ruhundan çox xəbərdar olan bir şəxsiyyət idi. O, eyni zamanda dövrünün şairlərinin əksəriyyətindən artıq dərəcədə qələm sahibi olmuşdur. Çünki şeirləri düşmənlərinin fikrinin əksinə olaraq, onun böyük bir iqtidar və gözəl təb sahibi olduğunu göstərməkdədir. Sultan Hüseyn Bayqaranın vəfatından sonra bir ovuc taxıla möhtac qalan bir çox üləma Məhəmməd Şeybani xandan himayə gördülər. O, üləmaları xidmətə alıb münasib vəzifələr verdi. Buxara, Səmərqənd, Daşkənddə məscidlər, mədrəsələrin abadlaşdırılmasını əmr etdi. Hətta səfərlərində də ətrafında bir çox üləma olmuş və bunlar ona hörmət və sədaqət gözüylə baxmışlar.

Məhəmməd Şeybani xan ərəbcə və farscanı yaxşı bilirdi və diqqətəşayan türkcə əsərləri də vardı. Onun saraydakı ədəbi məclislərinin bəzəyi olan Molla Bənnai dəyərli bir şair idi. Şeybani ədəbiyyatçıları, sənətkarları, alimləri himayə və onları təşviq edər, onların söhbətini axtarardı. Şeybani xanla bağlı məlumatda Z.V.Togan yazır ki, Şaybak xan və çağdaşı bəzi şairlər sayəsində türk lisanı hər yerdə həqiqətən rəsmi hökümət lisanı olmuşdur. Şaybak Xan Türküstanın türklərlə iskanı və Türk harsının istilası yolundakı məsailərində tamamilə nail olmuşdur. Bununla Şaybak xan Türküstanın ən qiymətli, ən əziz hökmdarlarından sayılmağa layiqdir [3, s.192].

Şeirlərində Şeybani təxəllüsündən istifadə edən Şeybani xan divan tərzi şeirləri ilə yanaşı, Əhmədi-Yəsəviyə böyük bir hörmətlə bağlılığı səbəbilə hikmət tərzində, heca vəzni ilə dördlüklər halında poetik nümunələr də yaratmışdır. Şeybani xanın klassik tərzdəki şeirlərində dilinin sadə, məcazlarının bəsit olduğunu ifadə edən K.Eraslan, "xüsusilə səs təqlidi mahiyyətindəki kəlmələrə çox yer verdiyinə, şəriətə, sünni əqidəyə sıx bağlı olmasına rəğmən həyatında şərab və musiqi aləmlərinə bolca yer verdiyinə və bu yaşayışını, Buxara, Türküstan, Səmərqəndin gözəlliklərini şeirlərində əks etdirdiyinə" işarə edir [4, s.343]. Şeybanilər dövründə ədəbi fəaliyyətlə bərabər dini fəaliyyətlər də önəmli bir yer tutmaqdaydı. K.Eraslanın da göstərdiyi kimi, bu dönəmdə hazırlanan “Qur'an” tərcümə və təfsirləri, Şeybani xanın “Bəhru'l-Xüdâ” adlı məsnəvisi, fiqhə aid risaləsi də bunu açıqca göstərməkdədir. M.Fuad Köprülü, "Şeybani-nâmə” sahibi Məhəmməd Salih kimi tərəfdarlarının iddiaları dərəcəsində bir şair olmadığı şübhəsiz olan Şeybani orijinal və səmimi mənzumələri, xüsusilə, Nəvai klassizminin yanında Yəsəviliyin ədəbi ənənələrinə bir yer vermək xüsusundakı səyi ilə cağatay ədəbiyyatının təkamülündə ihmal edilməyəcək bir simadır" demiş və "xüsusilə Məhəmməd Şeybani və Ubeydullah xanların milli dil ilə yaxından əlaqələndiklərini" gösrərərək bu dönəmdə bir sıra əsərlərin türkcəyə çevrildiyini, bir çox türkcə əsərin də yazıldığını ifadə etmişdir [1, s.311].

N.Devranın da haqlı olaraq işarə etdiyi kimi, "Şeybani-namə”, tarixdə Şeybani xan haqqında yazılmış tək əsər deyildir. Molla Sədinin farsca “Fəthnameyi-Xani”, Molla Bənnainin farsca “Şeyba-

ninamə"si, Ruzibek xanın "Səfərnameyi-Buxara"sı kimi əsərlərdə də köçəri xanların həyatları, məqsədləri və ideologiyaları təsvir edilmiş, amma Məhəmməd Salihin "Şeybaninamə"sindəki qədər geniş və dərin şəkildə işlənməmişdir. "Şeybaninamə" dastanının bu cəhətdən də Orta Asiyanın XVI əsr tarixinin öyrənilməsində ən dəyərli qaynaqlardan biri olduğu düşünülməkdədir [5, s.8].

M.F.Köprülünün də işarə etdiyi kimi, XVI əsr Çağatay şairləri arasında qərb elm aləmində ən çox tanınmış olanı Şeybani xanın zəfərlərini təsvir üçün yazdığı "Şeybaninamə" adlı mənzum xronika sayəsində Məhəmməd Salihdir [1, s.312]. XV əsrin ikinci yarısı və XVI əsrin birinci yarısında yaşayaraq, əsər verən cağatay şairlərindən Məhəmməd Salih, 1455-ci ildə Xarəzmdə doğulmuşdur. O, Xarəzm hakimi Nur Səid bəyin oğludur. Nur Səid bəy isə Teymur və Teymurilərə xidmət edən əmir Şah Məlikin oğludur. Bu zat, Əbu Səid Mirzə dövründə Xarəzm hakimi olub, Teymurilərin, bilavasitə Hüseyn Bayqaranın (1438-1506) hücumuna təhəmmül edə bilmədiyi üçün Herata çağrılaraq, İxtiyarü'd-din qalasında həbs edilir. Çox keçmədən Əbdürrəhman Caminin xahişi ilə sərbəst buraxılır və Mərvə hakim olaraq göndərilir, ancaq orada öldürülür.

Erkən yaşlarda yetim qalaraq həyatın bir çox çətinliklərinə məruz qaldığına görə, adıçəkilən əsərində işarə edilən Məhəmməd Salih də eynən atası Nur Səid bəy kimi Teymurilərdən mürüvvət və şəfqət görməmişdir. Əlişir Nəvai və Əbdürrəhman Cami kimi böyük ustadların tövsiyələrindən və ədəbi söhbətlərindən yararlanmaq ona hüzur versə də, Hüseyn Bayqara sarayından getməyə məcbur olur. Təxminən 1499-cu ildə Şeybani xanın yanına gəlir. Bu tarixdən sonra şair, Şeybani xanın yanında Teymurilərə qarşı da qılıncla və qələmlə mücadilə etməyə başlayır.

Nəsrulla Devrana görə, ümumi olaraq Məhəmməd Salihin əsər verməyə başladığı bu dönəmdə Mavərənnəhr və Xorasanda qarışıq sosial və iqtisadi şərtlər meydana gəlmiş və siyasi çəkişmələr zirvəyə çıxmışdı. Bir yandan Teymurilərin öz aralarındakı taxt qovğaları davam edərkən ,digər tərəfdən, Əbül-xayr xan və övladları başçılığında köçəri özbəklərin Teymurilərə qarşı savaşları hər keçən gün artmaqdaydı. Digər tərəfdən isə bəylərin öz aralarındakı çəkişmələr də artmışdı. Onlar da öz torpaqlarını genişləndirmək, sərvətlərini artırmaq üçün böyük səy göstərirdi. Bütün bunlar Teymur və ondan sonra Əbu Səid Mirzə hökmranlığı dönəmində zorla birləşdirilən mərkəzi dövlətin parçalara bölünüb, içəridən çökməyə başlamasına səbəb oldu. Bu daxili çəkişmələr, sonunda ölkəni viran etdi. Xalqı ağır həyat şərtlərinin girdabına itələdi. Bu səbəblə Teymurilərin xalq yanında etibarı düşdü. Dövlətləri də hər keçən gün gücünü itirdi [4, s.6].

Məhz belə bir zamanda Teymurilərin zəifliklərindən faydalanan Şeybani xan köçəri özbəklərin bir çox qəbiləsini öz komandanlığında birləşdirərək Mavərənnəhrə hücuma başladı və bu hücumlarda qalib gəldi. Teymuriləri heç sevməyən Məhəmməd Salih bu sırada vaxtı qənimət bilərək 1499-cu ildə Şeybani xan tərəfinə keçdi. Bunun ən önəmli səbəblərindən biri şairin Teymurilərdən atasının öldürülməsinin intiqamını almaq istəyi idi. Məhəmməd Salih Şeybani hüzurunda saray şairi və tarixçisi olaraq yer alırdı. Savaşçı və komandir olaraq savaşlara da getmişdir.

1504-cü ildə Məhəmməd Salih Şeybani xanın kiçik qardaşı Sultan Mahmud ilə Qunduz şəhərində yaşayırdı. Sultan Mahmudun vəfatından sonra isə öz istəyi ilə Buxaraya qayıtdı. Hicri 909-cu ildə Buxaraya hakim təyin edildi. Bu barədə tarixçi Xandəmir "Həbibü's-siyər" əsərində ətraflı məlumat vermişdir.

Şeybani xan Türküstan, Daşkənd, Fərqanə, Səmərqənd, Buxara, Hisar, Qunduz kimi şəhərləri alınca, Mərv və Xarəzmi almaq, ardından da Herata hücum etmək məqsədi ilə 1505-ci ldə Xarəzmə doğru yürüş etdi. Məhəmməd Salih bu savaşlarda komandir və dövlət adamı olaraq iştirak etdi. Bu əsnada ona Carcou hakimliyi verilmişdi. Məhəmməd Salih Carcuda qayda-qanun yaratdıqdan sonra Xarəzmə getdi.

Şeybani "Divan"da Məhəmməd Salihlə bağlı mənzumələrə yer verərək, ondan duyduğu məmnuniyyəti dilə gətirir, səslənərək içki məclisinə çağırır, onun içki təqdim etməsini istədiyindən və yenə onun xana yardım etdiyindən və s. bəhs edir.

E.Şadiyev Məhəmməd Salih haqqında yazır ki, Məhəmməd Salih, hakim təbəqəsinə mənsub bir ailə içində doğulub-böyüdüyü üçün yaxşı tərbiyə almışdır. İbtidai təhsilini aldıqdan sonra Heratda

Əbdürrəhman Caminin yanında təhsil görmüş, orada ərəb və fars ədəbiyyatını öyrənmiş, tarix və fəlsəfə ilə məşğul olmuşdur. Xəttatlıq sahəsində də mühüm nailiyyətlər əldə etmişdir [6, s.6].

Məhəmməd Salih atasının ölümündən (1469) sonra maddi və mənəvi çətinliklər çəkir, təhsili buraxır. Hüseyn Bayqara taxta çıxınca bir müddət onun sarayında (sonralar Buxara və Səmərqənddə), başqa hakimlərin sarayında xidmətdə olur. Hüseyn Bayqara tərəfindən də çox iltifat görməyən Məhəmməd Salih saraydakı vəzifəsindən ayrılaraq bu sıralarda (1499-cu ildə) Mavərənnəhri ələ keçirməyə çalışan Şeybani xanın xidmətinə girir. Şeybani xan onu səmimi qarşılayir və ona "əmirül-üləma" və "məliküş-şüəra" titullarını verir. O zamandan etibarən Məhəmməd Salih Şeybani xan tərəfində yer alaraq Teymurilərə qarşı mücadiləyə girişir. Məhəmməd Salih 1505-ci ilin sonlarında, yaxud 1506-cı ilin əvvəllərində Şeybani xan tərəfindən Nisa şəhərinə hakim təyin edilmişdir. Onun burada neçə il hakimlik etdiyi məlum deyil. Böyük ehtimalla, 1510-1511-ci ilə qədər, yəni Şeybaninin Şah İsmayıl tərəfindən öldürülməsinə qədər hakimlik etmmişdir, sonrasında isə Buxaraya gəlmiş və orada 1534-cü ildə vəfat etmişdir. Başqa bir qaynağın verdiyi bilgilərə görə isə, Şeybani xan Buxaranı ələ keçirincə Məhəmməd Salihi orada hakim təyin edir və sonrakı hərbi yürüşlərdə onun da iştirakını təmin edir. 1505-1506-ci ilə qədər Məhəmməd Salih Xarəzmdə Şeybani xanın hüzurunda olur. Məhəmməd Salih, lirik şeirləri ilə şöhrət qazanmışdır. Əlişir Nəvai, Zahirüd-din Məhəmməd Babur, Sam Mirzə, Lütfəli İbn Ağaxan (Atəşkədə), Xoca Həsən Nisari kimi zamanının məşhur şair və ədəbiyyatçıları bu böyük sənətkarın yaradıcılığına yüksək qiymət vermişlər. E.Şadiyev Məhəmməd Salihin ədəbi mirası haqqında çeşidli və bir-birinə zidd fikirlərin olduğundan söz edərək, araşdırmaçıların bəzilərinin şairin "Məcnun və Leyla", "Naz və Niyaz" adlı əsərlərinin olduğundan bəhs etdiklərini, bəzilərinin isə bu fikrə şübhə ilə baxdıqlarını, yenə müəllifi müəyyən olmayan "Tarixi-Qozide-Nusrətnamə"nin M.Salihə aidliyinin mübahisəli olduğunu göstərir [6, s.5-6].

Z.Baburun "Xatirat"ında göstərdiyi kimi, Məhəmməd Salih çağatayca və farsça şeirlər yazmış, bunları toplayaraq bir divan hazırlamışsa da, divanı indiyə qədər aşkar olunmamışdır. Onun günümüzə qədər gəlib çıxan yeganə əsəri "Şeybaninamə"məsnəvisidir.

Bu məsnəvi cağatay ədəbiyyatı tarixində mühüm hadisə sayıla bilər. Çünki dövrünə aid hadisələri əks etdirən realist xarakterli bir poemadır. Əsər Şeybani xanla Teymurilər arasındakı qanlı savaşları əks etdirir. M.Salih Şeybani xanın yürüşlərində iştirak etmiş və gördüyü dəhşətli hadisələri təsvir etmişdir. Bu baxımdan əsər bir cəngnamə səciyyəsi daşımaqdadır. Burada ordular arasında toqquşmalar, xalqın başına gətirilən müsibətlər müəyyən qədər realist boyalarla ifadəsini tapmışdır. Əruzun rəməl bəhrində qələmə alınmış məsnəvi Şeybani xanın dövrünə və fəaliyyətlərinə işıq tutması baxımından önəmlidir.

"Şeybani-namə" 80 babdan ibarət böyük bir məsnəvi olub dastanın birinci babı minacatdır. 15 babı lirik mənzumələrdir və qalan bablar da tarixi hadisələrin təsvirinə ayrılmışdır. Dastanın digər dastanlardan əsas fərqi budur ki, burada əsərin əsasına əfsanəvi hadisələr deyil, əksinə, şairin öz gözüylə gördüyü hadisələr alınmışdır. Beləliklə, bəhs edilən hadisələr uydurma olmadığı kimi, əfsanəvi qəhrəmanların həyatı və hərəkətləri ilə də əlaqəli deyildir. Qəhrəmanlar gerçəkdə yaşamış insanların özləridir. Əsərdəki bu insanlar iki qrupa ayrılmaqdadır: birinci qrupda biz Şeybani xan rəhbərliyində Sultan Mahmud, Teymur Sultan, Can-Vəfa, Urus bəy kimiləri görərkən, ikinci qrupda Hüseyn Bayqara rəhbərliyində Zəhirəddin Babur, Baki Tarxan, Bədüz-zaman, Sultan Əli, Xosrov Şah, Əbu'l-Muhsin, Çın Sufi kimi Teymuriləri görürük. Bunların koməyi ilə hicri tarixlə 905-dən 911-ə, miladi 1499-dan 1506-ya qədər olan savaşlar və çəkişmələr, bu arada xalqın yaşadığı dəhşətli hadisələr anlatılmaqdadır. Qeyd edildiyi kimi, müəllif Şeybani xanın bütün həyatını deyil, hicri 905-ci (m. 1499-1500) illərdə Xanın Buxaraya qarşı səfərə çıxmasından hicri 911-ci ildə (m. 1505-1506) Xarəzmi fəth etməsinə qədər olan illəri əhatə edir.

Dastan Şeybani xan ordusunun Buxara üzərinə hücuma hazırlaşması ilə başlayır. Şeybani xan bu yürüşdə Buxaranın qapısına böyük bir qüvvə ilə hücuma keçir və dəhşətverici savaşlar nəticəsində Buxara əmiri Baki Tarxanın əsgərlərilə Debüsi qalası yaxınlığında üz-üzə gəlir. Baki Tarxan Buxaraya sığınır və Şeybani xan tərəfindən orada mühasirəyə alınır. Ardından təkrar üç gün vuruşurlar. Nə-

ticədə Baki Tarxan təslim olmağa məcbur olur. Şeybani xanın ordusu Buxaranı yağmalayır. İnsanları kütlələr halında öldürür.

Bundan sonra Şeybani xan, Səmərqəndə doğru yürüş edir. Buxarada öz hakimiyyətini quran Şeybani xan Səmərqənd yolunda Kara-köl, Karşı şəhərlərinə də basqın edərək ələ keçirir. Bu əsnada Xəzər vilayətini də özünə bağlayır. Ardından Şeybani xan Səmərqənd şəhərini mühasirə edərək, Teymurilərdən yardım alan Babur Mirzə ilə çox böyük savaşlar edir. Mühasirə sırasında şəhərdə yaşayanlar çox çətin günlər yaşamağa başlayır. Çox sayda günahsız insan aclıqdan və susuzluqdan ölür. Şeybani xan şəhər xalqının yardım yollarını kəsir, uzun sürən mühasirədən sonra Babur Mirzəyə qalib gəlir. Babur Səmərqəndi qoyub gedir. Babura yardım etmək üçün gələn dayıları Tənbəl və Xanikə xan Şeybani xanın əsgərlərindən qorxaraq yoldan geri qayıdırlar. Ardından Şeybani xan Şahruxiyyə və Uratipeyə doğru yürüş edir.

Əsərin son hissələrində Şeybani xan tərəfindən Bəlx şəhərinin mühasirə edilməsi və Xosrov şahın qaçışı, Əndicandakı Tənbələ qarşı əsgər yollanması və nəhayət, Xarəzmdə Çın Sufi ilə sürdürülən cənglər anlatılmışdır. Əsərin sonu Şeybani xanın Xarəzm üzərində qazandığı qələbənin təsviri ilə tamamlanmaqdadır.

"Şeybaninamə"nin əldə bir əlyazması qalmışdır. 1510-cu ildə üzü köçürülən bu nüsxə Vyanada Avvstriya Milli kitabxanasında 1156 nömrədə qorunmaqdadır. Həmin nüsxəni German Vamberi alman dilinə tərcüməsi ilə 1885-ci ildə nəşr etdirmişdir. Daha sonra türkoloq P.M.Melioranski bu nüsxəni 1908-ci ildə Sankt-Peterburqda nəşr etdirmişdir. Bunun əsasında 1961-ci ildə əsəri Nəsrulla Dövran, 1989-cu ildə isə Erqaşali Şadiyev Daşkənddə nəşr etdirmişlər. 1990-cı illərdə türk dünyasına açıldıqdan sonra Türkiyədə bu sahədə araşdırmalara böyük önəm verilmişdir. Bu dövlət siyasətinin nəticəsi olaraq Türkiyə Cümhuriyyətinin bir sıra universitetlərində çağdaş türk ləhcələri və ədəbiyyatı ixtisasları fəaliyyətə başlamış, türk dünyası ədəbiyyatının daha əhatəli şəkildə öyrənilməsinə imkan yaranmışdır. Bu bağlamda İstinbal Universitetində Türkiyyat İnstitutu xüsusilə fərqlənməyə başladı. Bu elm ocağında indi həmin universitetin professoru olan Y.Kocasavaş Məhəmməd Salihin "Şeybaninamə" məsnəvisini geniş şəkildə araşdırmış və bu mövzuda doktorluq dissertasiyası müdafiə etmişdir.

## Nəticə / *Conclusion*

Azərbaycan Resublikası da ikinci dövlət müstəqilliyinə qovuşduqdan sonra ölkəmizin türk dünyası ilə ədəbi əlaqələri xeyli genişlənmişdir. Xüsusilə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda bu istiqamətdə xeyli iş görülmüşdür. İndi Orta Asiya xalqlarının ədəbiyyatı, özəlliklə özbək klassik ədəbiyyatı nümunələri tərcümə edilərək Azərbaycan ədəbi ictimaiyyətinə təqdim edilməsi istiqamətində çox səmərəli işlər görülür. Biz də bir neçə ildir Məhəmməd Salihin "Şeybani-namə" məsnəvisi üzərində tədqiqat apararaq [3; 4; 5] əsəri dilimizə tərcümə etdik.

## Ədəbiyyat / *References*

1. F.Köprülü. Çağatay edebiyatı-İA, III c. MEB yay. İstanbul, 1993.
2. J.Eckmann. Harezm, Kıpçak ve Çağatay türkçesi üzerine araştırmalar. (hazırlayan prof.dr. O.F.Sertkaya), TDK yay. Ankara, 1996.
3. Z.V.Toğan. Bugünkü Türkili (Türkistan) ve Yakın Tarihi, I. İstanbul, 1989.
4. K.Eraslan. XVI. Yüzyıl Çağatay Edebiyatı, *Başlangıcından Günümüze kadar Böyük Türk Klasikleri*, IV c. İstanbul, 1984.
5. Muhammed Salih. Şayboniynoma. UzFA naşriyeti, Toşkent, 1961, naşrqa tayerovçi Nasrullo Davron.
6. Muhammad Salih. Şaybaniynama. Toşkent, Qafur Qulam nomidaqi adabiyet va sanat naşriyeti, 1989.

## Произведение Мухаммеда Салиха «Шейбанинаме» на Азербайджанском языке

**Абульфаз Гулиев**
Член-корреспондент НАНА. Азербайджан
E-mail: ebulfez1950@mail.ru

**Резюме.** XV-XVI века занимают важное место в истории литературы тюркских народов Средней Азии. В этот период в чагатайской литературе выросли такие литературные личности, как Алишир Наваи, Гусейн Байгара, Захиреддин Бабур, Мухаммед Шейбани, Мухаммед Салих и др. В конце XV века в Средней Азии тимуриды были ослаблены, поэтому борьба за трон резко обострилась. В этом деле особенно выделялся узбек по происхождению Шейбани-хан. Он основал государство Шейбанидов и всеми силами пытался расширить границы этого государства. Шейбани-хан был не только храбрым полководцем, но и прекрасным поэтом, остался его диван. Шейбани хан собрал вокруг мастеров слова, поэтов. Одним из поэтов в его дворце был Мухаммед Салих. Мухаммед Салих принимал участие во всех военных походах правителя, писал об их подвигах. Поэма “Шейбанинаме”, написанная поэтом, также посвящена этому правителю и его победам на поле боя. Только один экземпляр поэмы “Шейбанинаме”, состоящей из 4447 бейтов, написанных на арузе рамал бахри, дошел до нашего времени. Единственный рукописный экземпляр меснави “Шейбанинаме”, который был переписан в 1510 году, хранится в Австрийской национальной библиотеке в Вене. Несмотря на то, что диван является литературным образцом, язык этого произведения прост и читаем. Учитывая его литературное значение, мы перевели этот ценный образец классического чагатайского литературного языка с оригинала на наш язык и подготовили его к печати.
**Ключевые слова:** «Шейбанинаме», чагатайский язык, литература, поэзия, Мухаммед Салих